

Xəyalə Zeynal qızı Zeynallı çox gəncdir, orta məktəb şagirdidir. Bütün gənc insanlar kimi o da arzularının qanadlarında gələcəyə boylanır, gündən-günə formalaşan dünyagörüşü fonunda həyat hadisələrini dərk edir və yaşına uyğun tərzdə baş verənləri mənəvi-psixoloji aspektdə qiymətləndirir, yaşıdları ilə polemika aparmağa çalışır. Bu kiçik əsər onun duyğu və düşüncələrinin ilk ifadəsidir. Gənc yaşında cəsarətlə əlinə qələm alması göstərir ki, o, yaradıcı təxəyyülə malikdir və həyat hadisələrini təfəkkürün süzgəcindən keçirib mənalandırmağı bacarır.

9 789952 594652

GİZLİ OTAQ və BİR NƏSLİN HƏYATI

XƏYALƏ ZEYNALLI

# GİZLİ OTAQ

## və

## BİR NƏSLİN HƏYATI



XƏYALƏ ZEYNALLI

**Xəyalə Zeynallı**

# *Gizli otaq və bir nəslin həyatı*

Bakı - 2025

**Xəyalə Zeynallı**
*Gizli otaq və bir nəslin həyatı*

Bakı, "Zərdabi Nəşr" MMC,
2025, 104. səh.

**ISBN 978-9952-594-65–2**

© Xəyalə Zeynallı, 2025

Yağışlı bir payız axşamı idi. Eymen evə tələsirdi. O, evə tez çatmalı idi. Çünkü, nənəsi evdə onu gözləyirdi. O, nənəsinə dərman almağa getmişdi. Eymen aptekdən qayıdanda içində təşviş qarışıq bir hiss vardı: "Görəsən, nənəm şəfa tapacaq?"

Nənəsi onkoloji xəstə idi və həkimlər onun ömrünün az qaldığını bildirmişdilər. Eymen kicik olanda valideynləri maşın qəzasında ölmüşdülər. O, valideynlərindən ala bilmədiyi qayğını, nəvazişi nənəsindən alırdı. Həmişə fikirləşirdi ki, nənə-

si də ölsə o kimsəsiz qalacaq. Nənəsi sarıdan ümidi tamam üzülmüşdü. Allahdan bir möcüzə istəyirdi ki, nənəsi sağalsın.

Eymen evə çatdı. Qapını açıb, içəriyə daxil oldu. Çarpayıda uzanmış qoca qadın yuxuya getmişdi. Sifətinin solğun rəngindən görünürdü ki, halı yaxşı deyil. Eymen özünü saxlaya bilməyib ağlamağa başladı. Belə vəziyyətə düşəndə gələcəyi haqda dolaşıq suallar onun beynini gəmirirdi.

Eymen istəmirdi ki, nənəsi onun ağlamağını görsün. Çünki, Esmira mənə onu gözüyaşlı görəndə halı qarışırdı. Buna görə də göz yaşlarını boğub cəld aşağı düşdü. Lakin artıq gec idi, nənəsi onun ağladığını duydu, buna görə də üzünün ifadəsi daha da solğunlaşdı. Sonra Eymen göz yaşını silib, mətbəxə keçdi. Fincana bir az su töküb, nənəsinin yanına gəldi. Esmira nənənin dərman içmək saatı idi. Eymen

həbi nənəsinə içirtdi.  Sonra yıxılıb yatdı. Eymen hər axşam nənəsinin yanında onu qucaqlayıb yatırdı. Nənəsi onun saçını sığallayırdı. Onu da yuxu aparırdı.

Esmira nənənin qəlbində Eymenə demək istədiyi bir söz var idi. Amma hələlik bunu deyə bilmirdi. Bir tərəfdən də qorxurdu ki, birdən qəfil ölər və sözünü deyə bilməz. O, Allahdan möhlət istəyirdi. Nənə əlacsız qalmışdı. Nə edəcəyini bilmirdi.

Səhər açıldı. Eymen oyandı, amma nənə yatmıştı. Eymen gördü ki, saçı, köynəyi nəmdir. O bunun nə səbəbdən olduğunu anladı. Bildi ki, nənəsi gecə çox ağlayıb. Buna görə qüssəsi daha da artdı.

Eymen bir qız sevirdi. Adı Aylin idi. 18 yaşı var idi. Esmira nənə onun Aylini sevdiyini, onunla ailə qurmaq istədiyini bilmirdi. Bir  gün onlar qərar verdilər ki,

münasibətləri barədə Esmira nənəyə danışsınlar. Onlar birlikdə Eymengilə gəldilər. Sevgililər içəri girəndə əl-ələ tutmuşdular. Nənə onları görüb ahəstə dedi:

- Balalarım, Allah sizləri xoşbəxt eləsin!

Bunu eşidəndə Eymen ilə Aylin bir-birlərinə heyrətlə baxdılar. Çünki, onlar elə bilirdilər ki, nənə onların sevgisi haqda bilmir. Amma nənə elə indicə bunu anladı və o saat da xeyir-dua verdi. Eymen nənəsinə yaxınlaşıb, dedi:

- Nənə, bunu mən sənə əvvəldən deməli idim. Gizlətdiyim üçün üzürlü say.

Nənə:

-Eybi yox, mənim balam, təki siz xoşbəxt olun.

Nənə gündən-günə solurdu, çətinliklə yeriyirdi. Eymen gecə-gündüz çalışırdı. Əslində Eymenin əlində sənəti var idi. La-

kin o, yaxşı gəliri olan daimi iş tapa bilmirdi. Bütün günü özünü ora-bura vurub çalışmağına baxmayaraq yenə nənəsinin dərmanlarına pul çatdırmırdı.

Nənənin müalicəsi ilə məşğul olan həkim onları Bakıya çağırmışdı. Amma Eymenin cibində cəmi 5 manat pulu vardı. Nə həkimə, nə də yola verməyə pulu yox idi. Əlacsızlıqdan dua edir, həyətə enib tövlənin ağzında oturub xəlvəti ağlayırdı. Bir dəfə onun hıçqırtısının səsini Aylin eşitdi və yanına gəldi. Ondan niyə ağladığını soruşdu. O isə Aylinə həzin-həzin baxaraq dedi:

-Aylin, hiss edirəm ki, Esmira nənəm öləcək. Mənim ondan başqa heç kimim yoxdur. İndi onu həkimə aparmaliyam. Amma cibimdə cəmi 5 manat pulum var.

Aylin:

-Ayyy mənim əzizim, qurban olaram sənə, nə üçün ağlayırsan? Mən sənə verim də pul. Niyə bunun dərdini çəkirsən axı?

Eymen:

-Yox, mən bunu qəbul edə bilmərəm. Çox sağ ol.

Sonra Eymen nənəsinin yanına gəldi. Onun səhhəti ilə maraqlandı, sonra çarəsizcəsinə səhəngi götürüb bulaqdan su gətirməyə getdi. Aylin Eymenin həyətdən çıxmağını gözlədi. Nəhayət, gördü ki, Eymen əlində səhəng bulaq tərəfə getdi. Bu fürsətdən istifadə edərək nənənin otağına daxil oldu, əhvalını soruşub, nəyəsə ehtiyacı olub-olmadığını öyrənmək istədi. Onun başı Esmira nənəyə qarışsa da, Eymenə necə kömək etmək barədə düşünürdü. Qəfil beyninə gələn bir fikir onu sevindirdi:

“İndicə Eymen gələcək, tez gedib işimi görüm”.

O, Eymenin otağına daxil oldu və kağız-qələm götürdü. Kağıza bu sözləri yazdı:

“Salam oğlum, bu sözləri yazan atandır. Oğlum, sən bu mesajı oxuyanda bəlkə də mən sənin yanında olmayacağam. Allahın işidir. Bunu sənə yazmaqda məqsədim odur ki, indiyədək işləyib yığdığım pullar buradadır. Ağ şkafın içində. Burada cəmi 500 manat pul var. Ümid edirəm, işinə yarayar, sənə xeyri olar. Əlvida, oğlum!”

Aylinin bunu etməkdə məqsədi Eymenə kömək etmək, onu dardan çıxarmaq idi. O, kağızın arasına 500 manat qoyub, bükdü. Bükülünü isə ağ şkafa qoydu. Sonra Esmira nənənin yanına qayıtdı və dedi:

-Nənə can, sizin paltarlarınızı ağ şkafa qoydum. Mən gedirəm, anam gözləyir.

Eymen gələndə deyərsiniz paltarlarınızı verər. Dualarım sizinlədir!

Çox keçmədi ki, Eymen gəldi. Nənəsinə yemək verdi, dərmanlarını içirtdi. Onun dərmanlarını verəndə bilməyərəkdən suyu Esmira nənənin paltarına dağıtdı. Esmira nənə ağ şkafdan ona təmiz paltar verməsini istədi. Esmira nənənin əşyaları, paltarları orada idi. Eymen şkafı açıb paltarı götürdü. Amma Aylinin şkafa qoyduğu bükülünü görmədi. Eymen nənəsini rahatladı və oturub sabahı fikirləşdi. Axı, sabah həkimin onları Bakıya dəvət etdiyi gün idi. Fikirdən gözünə yuxu getmirdi. Nəvəsinin əlacsız durumuna görə Esmira nənənin də gözləri dolmuşdu. Nəhayət, Eymen fikirlər içində yuxuya getdi. Bilirsiz nə oldu?

Atası onun yuxusuna girdi və yuxuda ona ağ şkafın içinə baxmasını, oranı ax-

tarmasını xahiş etdi. Eymen qəfil yuxudan oyandı. Bir tərəfdən sevincək, digər tərəfdən ümidsiz bir şəkildə ağ şkafa yaxınlaşıb rəfləri axtardı. Əlinə bir zərf keçdi.

Maraqlı olan bilirsiz nə idi?

Bu zərf Aylinin qoyduğu deyildi. Başqası idi. Zərfin üzərindəki yazı anasının xətti idi. Eymen anasını xatırlayıb qəhərləndi. Sonra zərfin içindəki saralmış kağızı oxudu. Orada yazılmışdı: “Mənim ağıllı oğlum, sən mənim fəxrimsən. Oğlum, atanın ev xərcliyi üçün verdiyi pulların bir qismini yığmışdım. İndiyə qədər 100 manat yığa bildim. İnşallah, xeyir işlərə qismət olar. Həmişə qəlbimdəsən, gözümün nuru”.

Eymen sevincdən ağlayaraq, bilmədi nə etsin. Birdən o, paltarları dağıtdığını gördü. Paltarları yerinə yığanda bir bükülü də tapdı. Bu, Aylinin yazıb (atanın

adından) arasına pul qoyduğu bükülü idi. O, kağızı açıb içini oxudu və kövrəldi. Çox sevincli idi. Allaha sonsuz təşəkkürlərini bildirdi.

Eymen sevincdən bilmirdi gülə, yoxsa ağlaya. Tez qaça-qaça gedib hər şeyi nənəsinə danışdı. İndi onların hər ikisi çox xoşbəxt idi. Eymenin 600 manat pulu var idi. Bu pul Bakıya, həkimə getmək üçün bəs edirdi.

Sübh tezdən qalxıb hazırlaşan nənə-bala saat 7-də yola çıxmağa hazır idilər. Eymen nənəsinin vaxtında hazır olması üçün əlindən gələni edirdi. Evdən çıxandan 10 dəqiqə sonra onlar Aylin ilə görüşüb birlikdə Bakıya yola düşdülər.

Esmira nənənin ağrıları olduğu üçün çətinliklə yeriyirdi. Rayon mərkəzindəki avtovağzala getmək üçün Eymen kənddən bir maşın tutdu. Vağzala çatan kimi

o, Bakı avtobusuna 3 bilet aldı. Saat 8-də avtobus yola düşdü.

Pul məsələsi düzəlmişdi. İndi əsas məqsəd nənənin sağalması, əvvəlki gümrah halına qayıtması idi. Onlar paytaxta çatan kimi birbaşa xəstəxanaya getdilər. Həkim əməliyyatda idi. Onlar 20-30 dəqiqə həkimi gözlədilər. Həkim əməliyyatdan çıxdı və nənəni müayinə edib nəticəyə baxanda gözləri güldü, əllərini bir-birinə vurub dedi:

-Nənəcan, siz ki, bu cür ağır xəstəliyə qalib gəlmisiniz, halal olsun sizə! Amma siz yeriyə bilmirsiniz. Bunun səbəbini öyrən mək üçün analiz verilməlidir.

Esmira nənəni analiz otağına qaldırdılar. Analiz verildi. Analizin pulunu ödəmək istəyəndə həkim Eymenə pulu ödəməməsini xahiş etdi. Özü ödəyəcəyini bil-

dirdi. Axı, bahali analiz idi. Eymen buna razı olmadı. Dedi:

-Çox sağ olun, varımdır. Özüm ödəyəcəm. Bizi düşündüyünüz üçün təşəkkür edirəm.

Eymen pulu ödədi. İndi bir problem var idi. Cavablar 2 günə çıxacaqdı. Amma onların qalmağa yerləri yox idi.

Həkim onlara bir təklif etdi. Bu iki gün ərzində onların evində qala biləcəklərini bildirdi. İlk öncə Eymen buna razı olmaq istəmədi. Amma sonra onların Bakıda qalmağa yerləri olmadığını xatırlayıb, qəbul etdi. Həkim nənə ilə maraqli söhbətlər edirdi. Nənə də ondan geri qalmırdı. Həkimə maraqlı əhvalatlar, dastanlar danışırdı. Günləri xoş keçirdi, sıxıcı olmurdu.

## 2 GÜN SONRA

Onlar xəstəxanaya gəldilər. Cavablar çıxmışdı. Hər kəs çox həyəcanlı idi. Həkim cavab kağızını oxudu. Kağızda demək olar ki, müsbət nəticələr idi. Hamı sevindi, hətta Eymen sevincdən həkimi və nənəsini qucaqlayıb ağladı. Həkim nənənin bir müddət sonra əvvəlki sağlamlığına qovuşacağına söz verdi. Onlar evə qayıtdılar. Bu xəbəri Aylinə dedilər. O da çox sevindi.

Aylin onlar üçün çay dəmləmiş, gözəl süfrə açmışdı. Onlar bu axşamı şənliklə keçirdilər. Bir müddətdən sonra Esmira nənə çox yaxşı oldu, sağaldı, əvvəlki sağlamlığına qovuşdu.

Buna hamı məəttəl qalmışdı. Çünki, bu xəstəlik asan sağalan xəstəlik deyildi.

Amma onlar birlikdə bu xəstəliyə qalib gəldilər.

## 5 AY SONRA

Aradan xeyli keçdi. Eymen və Esmira nənə qərara gəldilər ki, Aylinə elçi getsinlər. Eymen bunu Aylinə dedi. O, razı oldu. Eymen cavabın "hə" olduğunu bilirdi, amma bunu onun öz dilindən eşidəndə daha da sevindi. Bir neçə gündən sonra elçi getdilər. Aylinin ailəsindən hər kəs Eymeni tanıyırdı, həm də Aylin razı idi deyə fikirləşmədən "xoşbəxt olun" deyib, razılıqlarını verdilər. Bir neçə aydan sonra onların nişanı, daha sonra toyları oldu. Eymen indi öz ixtisasına uyğun iş tapmışdı. O, işləyirdi və pulu var idi. Onlar gələcək üçün planlar qurmuşdular. Tez-tez xəyallara qapılırdılar.

Esmira nənə Aylini çox bəyənirdi. Onu Eymendən seçmirdi. Bu da onu daha da xoşbəxt edirdi.

Aylin Eymenin bilirsiniz nəyinə vurulmuşdu? Saçlarına, gözlərinə, ən əsas da sevgisinə!

Getdikcə onlar bir-birlərini daha çox sevirdilər. Onların sevgisi kənardan çox möhkəm görünürdü.

Gəlin bir az əvvələ qayıdaq.

Yadınıza gəlir, Esmira nənə ağrıyanda nəvəsinə nəsə demək istəyirdi, amma deyə bilmirdi. Allahdan möhlət istəyirdi ki, sözünü deyə bilsin. Bax, o sözü bu gün deyəcəkdi.

Eymen evə gəldi. O, işdən gəlirdi. Çox yorğun idi. Həmişəki kimi nənəsi ilə vaxt keçirdi, söhbət etdi. Nənə isə elə bu andaca ona demək istədiyi sözü dedi:

-Oğlum, sənə bir söz deməliyəm.

Eymen:

-De, nənə can, səni dinləyirəm.

Nənə:

-Bir gizli otaq var. Bu kəndin lap qurtaracağındadir. Bu gizli otaq ulu babalarımızdan mənə miras qalıb. İndi mən bunu həyatda canımdan çox sevdiyim bir nəfərə deməli idim. O da sənsən. O otağa yalnız mənim sevdiyim bir insan girə bilər. Bunu heç kim bilmir. Oğlum, sənə tövsiyə edirəm ki, gedib o gizli qapını açasan, hər şey yaxşı olacaq!

Eymen:

-Iıııı, şeyy…

Nənə:

-Heç nə demə, oğlum. Sadəcə qapını aç və içəri daxil ol!

Eymen:

-Yaxşı, nənə can!

Onlar yatdılar. Səhər açıldı. Saat 6 idi. Eymen yuxudan oyandı. Yeməyini yedi, hazırlaşıb getdi. Açığı, gizli otaq olduğu üçün Eymenə bir az qorxulu gəlirdi. Amma nənəsinin onun pisliyini istəmədiyini düşünüb, cəsarətini topladı. Xeyli axtarıb, sonda qapını tapdı. Qapının üstünə belə yazılmışdı: " Secret room and the door of happenes" (Gizli otaq və xoşbəxtlik qapısı).

O, əllərini qapıya uzadıb açmaq istəyəndə qapı öz-özünə açıldı. İçəri çox qaranlıq idi. Açıq desək, içəri hürküdücü olduğu üçün girməyə qorxdu. Amma içəri girəndə otaq qəfildən işıqlandı. İçəri elə bir yer idi ki, elə bil sehrli otaqdı. Həqiqətən də sehrli otaq idi. 5 qapı sağda, 5 qapı solda olmaqla 10 qapı var idi. Ortada isə sehrli bir işıq közərirdi.

Qəfil sehrli işıq danışdı:

-Salam, yaraşıqlı oğlan!

Eymen:

-Salam!

Sehrli işıq:

-Qorxursan?

Eymen:

-Xeyr, amma, deyəsən bir az hə…

Sehrli işıq:

-Qorxma, burada bədbəxtlik yoxdur. Xoşbəxtlik var. Bu açarları görürsən?

Eymen:

-Bəli, görürəm.

Sehrli işıq:

-Bu açarların hər biri bu 10 qapıdan birinin açarıdır. Sənin etməli olduğun vacib iş hər səhər saat 6-da gəlib bu qapılardan birini açmaqdır. Hər gün bir qapı aça biləcəksən. Ən əsası isə vaxtında gəlməkdir, saat 6-dan sonra qapı açılmır. Mütləq saat 6-da burda olmalısan! İndi get, bu

olanları heç kimə demə! Sabah gözləyəcəm. Hələlik!

Eymen:

-Hələlik!

Eymen evə gəlmədi. Birbaşa işə getdi. Baş verənlərə görə elə bil beyni kütləşmişdi. Amma hər səhər saat 6-da o otağa getməli idi. O, bu günlük iş saatını bitirib yenə çox yorğun halda evə qayıtdı. Yolda onun qarşısına bir dostu çıxdı.

Eymen:

-Ooo, Rail, necəsən? - soruşdu.

Rail:

-Səni gördüyümə şadam Eymen. Yaxşıyam, sağ ol, sən necəsən?

Eymen:

-Mən də şadam, Rail. Çox sağ ol, yaxşıyam, yaxşı ol.

Onlar birlikdə Eymengilə getdilər. Rail Esmira nənə ilə görüşdü. Bilirsiniz bu

vaxt nə baş verdi? Rail, Aylin və Eymenin nişanlandıqlarını öyrənəndə duruxdu, çünki o, Aylini sevirdi. Aylin bunu hiss edirdi. Buna görə həmişə ondan qaçırdı. Bunun səbəbini Eymen Aylindən soruşanda ondan zəhləsi getdiyini, buna görə də ondan qaçdığını bildirirdi. Axşam düşdü, onlar yatdılar.

Səhər açıldı. Bu gün Eymen ilk qapını açacaqdı. Eymen səhər tezdən oyanıb, yola çıxdı. Rail da oyanmışdı. O, Eymeni təqib etdi. Şübhələnmişdi. Fikirləşirdi ki, axı, sübh çağı o hara gedə bilər? Eymen gəlib gizli otağa çatdı. İçəri girdi və girdiyi an sehrli işıq danışdı:

-Xoş gəlmisən!

Eymen:

-Xoş gördük, qapını aça bilərəm?

Sehrli işıq:

-Əlbəttə, buyur!

Eymen açarın birini götürüb qapının birini açdı. Qapıdan ışıq saçdı. Qeybdən belə bir səs gəldi: “Bütün insanlar səndən gizlətdikləri sözləri bilməyərəkdən etiraf edəcəklər”.

Sehrli ışıq:

-Əzizim, insanların hamısı səndən gizlətdikləri hər bir şeyi sənə deyəcəklər. Bu xoşuna gəldi?

Eymen:

-Bəli, çox sağ olun.

İşıq :

-Sabah saat 6-da burda olmağı unutma! Hələlik!

Qapi öz-özünə açıldı. Eymen evə qayıtdı. Yolda dostu Rail önünə çıxdı. Dedi:

-Mənim Aylindən xoşum gəlir, sevirəm onu! Rail bu dediklərinin səbəbini bilmirdi. O, əlini ağzına tutub qaçdı. Ey-

men şok olmuşdu. Evə gəldi. Gələndə Aylin önünə çıxdı. Aylin ona dedi:

-Esmira nənə ağrıyanda zərfin içində atanın adı ilə pul qoyan mən idim.

Aylin nə dediyini bilmirdi. Eymen isə bütün bu deyilənlərə görə şok olurdu. O yatdı. Yatanda gün ərzində baş verən hadisələri analiz edirdi. O, səhər oyanıb, hazırlaşdı. Sonra ikinci qapını açmağa getdi.

Sehrli ışıq:

-Xoş gəldin!

Eymen:

-Xoş gördük. İkinci qapını açmağa gəlmişəm. O, açarı götürüb qapını açdı. Qapıdan belə bir səs gəldi: "Buradan çıxanda gələcəkdə ailə həyatı quracağın insan önünə çıxacaq".

Eymen bilirdi ki, onun evlənəcəyi insan Aylindir. O, çölə çıxdı. Qarşısına Aylin yox, Aylinin dostu Nərmin çıxdı. Şok

vəziyyətdə içəri girib sehrli ışıqdan bu hadisəni soruşmaq istədi, lakin qapı açılmadı. Bu qapı hər səhər saat 6-da açılırdı. O, az qala ağlını itirmiş vəziyyətdə evə gəldi. Nənəsi ilə Aylinin danışığını eşitdi.

Aylin deyirdi:

-Nənə can, mən nişanı qaytarıram. Bizdə alınmaz!

Nənə:

-Siz bilərsiniz, bala. Amma niyə belə oldu ki?

Aylin cavab vermədi. Həyətə gəldi və Eymen qarşısına çıxdı. Aylin üzüyü barmağından çıxarıb, Eymenə tərəf uzatdı və nişanı qaytarmaq istədiyini bildirdi.

Eymen:

- Yolun açıq, ışıqlı olsun!-dedi.

Eymen mənzilə girdi. Nənəsi qapıdan onları dinləyirmiş. Evə gələndə Esmira

nənə Eymendən niyə nişanlısından bu qədər tez vaz keçdiyini soruşanda, Eymen dedi:

-Heç kimi məcbur saxlamaq olmaz, nənə can.

Nənə bir qədər susdu. Sonra isə dedi:

-Allah xeyirlisindən eləsin, bala.

Eymen yeməyini yeyib yatdı. Səhər açıldı və o növbəti qapını açmağa getdi. Sehrli ışıq dedi:

-Xoş gəldin! Üçüncü qapını açmağa hazırsan?

Eymen:

-Bəli, hazıram.

Eymen qapını açanda qeybdən səs gəldi: “Varlandın, cavan oğlan!”

Eymen gözlərinə inana bilmədi. Təşəkkür edib getdi. Qapıdan çölə çıxanda üst-başı yeniləndi. Paltarları təzələndi. O, sevinirdi. Evə çatanda adi, birmərtəbəli

evlərinin yerində saray kimi yeni evin olduğunu gördü. İndi o, sevincindən bilmirdi nə etsin. Bütün bu dəyişiklikləri görəndə gözlərinə inana bilməmişdi. Esmira nənənin də paltarları təzələnmişdi. Esmira nənə baş verənlər haqda Eymendən heç nə soruşmadı. Çünki, səbəbini bilirdi. Onlar şam etdikdən sonra yatdılar. Evdəki köhnə əşyalar yoxa çıxmışdı. Yataqları, mebelləri indi ən son model idi.

Eymen səhərisi gün oyandı. Hazırlaşdı və yola düşdü. Gedib gizli otağa çatdı və içəri girdi. İçəri girəndə bu dəfə sehrli işıq onu salamlamadı. Bu dəfə ilk salamı Eymen verdi. Bu zaman sehrli işıq da salam verdi və dedi:

-Əzizim, elə insanlar var ki, əlinə pul keçən kimi Allahın salamını da vermir, heç kimi saymırlar. Amma sən onlardan deyilsən. Mən özüm sənə salam vermə-

dim ki, görüm sən salam verib gedəcəksən, yoxsa sadəcə qapının birini açıb gedəcəksən. İndi sən doğru olanı etdin. Heç vaxt sənə edilən yaxşılıqları unutma! İndi növbəti qapını aça bilərsən!

Eymen növbəti qapını açdı. Qeybdən bir səs gəldi: "Valideynlərinlə 15 dəqiqəlik görüşə biləcəksən".

Bunu eşidəndə o çox sevindi. Sevincinin həddi-hüdudu olmadı. O, özünü hamıdan fərqli biri kimi hiss edirdi. Sehrli işıq bir düymə göstərib dedi:

-Bunu görürsən? Bunun üstündən bas! Eymen basdı və qəfildən özünü buludların arasında gördü. O, atası və anası ilə qarşılaşdı. Eymen valideynlərini qucaqladı. Onlar 15 dəqiqə birgə vaxt keçirdilər. 15 dəqiqə tamam oldu və o özünü evdə yatmış vəziyyətdə tapdı. Bir anlıq özünü

yuxuda hiss etdi, ancaq bu yuxu deyildi. Sonra oyandı, hazırlaşıb işə getdi.

Axşam evə qayıdanda öz-özünə fikirləşirdi: "Mən Allahın sevimli bəndəsiyəm". Həqiqətən də elə idi. Onun başına heç kimin başına gəlməyən gözəl hadisələr gəlirdi. O, səhər açılan kimi saat 6-da gizli otağa getdi. Növbəti qapını açdı. Qeybdən bir səs gəldi: "Sən Allahın sevimli bəndəsisən və namaz qılıb, Allaha ibadət edəcəksən".

Eymen Allahın sevimli bəndəsi olduğunu özü hiss edirdi, amma yenə də çox sevindi. "Sağ olun" deyərək qapıdan çıxdı. Sevincək, gülərüz əhval-ruhiyyə ilə işə getdi. İşdə bir az qarışıqlıq var idi. Amma o bu qarışıqlıqdan çıxmağı bacardı. Axşam oldu və Eymen evə gəldi. O, artıq özünü dünyanın ən xoşbəxt, fərqli insanı

sayırdı. Evə qayıdandan sonra oturub Esmira nənə ilə söhbət etdi.

Eymen nənəyə belə bir sual verdi:

-Nənə, mən namaz qıla bilərəm?

Nənə:

-Hə oğlum, qıla bilərsən! Niyə də olmasın?

Namaz qılmaq,  Allaha ibadət etmək hər kəsin haqqıdır. Allah hamının içində səni də arzularına çatdırsın!

Eymen:

-Qılacam, Allah köməyimiz olsun!

Eymen o gündən bu arzusunu da yerinə yetirdi. Eymen şam edib yatdı və səhər açılanda yenidən gizli otağa getdi.

Növbədə 6-cı qapı idi. O, içəri girib salamlaşdı, qapını açdı. Həyəcanlı idi. Fikirləşirdi ki, görəsən bu dəfə hansı xoşbəxtlik çıxacaq?

Qeybdən səs gəldi: “Ömrünün üzərinə 2 il əlavə olundu!”.

Eymen gizli otaqdan çıxıb evə doğru getdi. Yolda qabağına bir pişik çıxdı. Pişik dümağ, pambıq kimi idi. Çox şirin idi! Belə bir pişiyi kim çöldə qoyardı? Eymen pişiyi çox sevdi. Onu evə apardı. Yemək, su verdi. Esmira nənə də pişiyi saxlamağa razılaşdı. Kimsə bu pişiyi çölə atmışdı. Eymen evdə olanda gününü onunla keçirirdi. Eymen axşam özü yemək yeməmişdən əvvəl pişiyə yemək verirdi. Adını da Tom qoymuşdu.

O, yeməyini yeyib, yatdı.

Səhər açıldı. O bu gün növbəti qapını açmaq üçün gizli otağa getdi. Bu dəfə bir dəyişiklik oldu. Yeddinci qapıdan heç bir şey çıxmadı. Səbəbi bilinmirdi. Səhərisi gün səkkizinci qapını açmağa getdi. Bu qapıdan belə bir səs gəldi: “Sən Nərmin adlı qızla ailə həyatı quracaqsan!”.

Bunu eşidəndə qulaqlarına inanmadı. Nərmin bilirsiniz kimdir? Nərmin Aylinin ən yaxın rəfiqəsi idi. Eymen evə getdi. Amma nənəsinə bu məsələlərlə bağlı heç nə deyə bilmirdi, çünki münasib bilmirdi. O, ertəsi gün bir daha gizli otağa gəldi. Artıq doqquzuncu qapını açmağa hazırlaşırdı. Qapını açdı və qapıdan belə bir səs gəldi: “Sənin gələcəkdə bir oğlun və bir qızın olacaq!”. Həmişəki kimi Eymen bunu eşidəndə çox sevindi.

Eymen səhərisi gün gəlib onuncu qapını açdı. Yenə qeybdən bir səs gəldi: “Məndən istədiyin böyük bir diləyini yerinə yetirəcəm!”.

Sehrli ışıq dedi:

-Buyur nə istəyirsən arzu et!

Eymen:

-Atamın və anamın bu dünyaya geri qayıtmasını istəyirəm.

Sehrli ışıq:

-Oğlum, yadında saxla! Allahın aldığı canı heç bir zaman bu dünyaya geri gətirmək olmur. Amma sən istəsən, mən elə edə bilərəm ki, ata və anan sənin yanında olanda sən onları hiss edəsən, səslərini eşidəsən. İstəyirsən bunu?

Eymen:

-Bəli, istəyirəm.

Sehrli ışıq:

-Get, evə çatdığın andan etibarən onları yalnız sən görüb, sən eşidəcəksən, hiss edəcəksən, yalnız sən onlarla danışa biləcəksən! Amma bunu heç kəs bilməyəcək. Bunu da bil ki, bu, 30 yaşına kimi davam edəcək! 30 yaşdan etibarən sən hiss edə bilməsən belə onlar həmişə yanında olacaqlar! Unutma! Uğurlar!

Eymen:

-Çox sağ olun hər şey üçün…

## 2 AY SONRA..

Artıq 2 ay keçmişdi. Eymen və Nərminin hərisi olmuşdu. Sabah nişan, on gün sonra toy idi. Hər kəsin başı çox qarışıq idi. Həm də hər kəs çox sevincli idi. Bir söz var ey, deyirlər "ilk sevgi unudulmur". Həqiqətən də Eymen Aylini tam unutmamışdı, elə bil qəlbinin bir hissəsi onda qalmışdı. Amma unutmağa çalışırdı. Bunu heç kimə demirdi. O bilirdi ki, artıq Nərmin ilə ailə qurub, yeni həyata başlayır, ömrünün yeni səhifəsini açır. Bir ürək yalnız birini sevə bilər.

Bu gün onların nişanı idi. Hər kəs şənliyə toplaşmışdı. Hamının üzü gülürdü, tək bir nəfərdən başqa. Sizcə bu kim idi?

Bu Aylin idi. Aylin nişana gəlmişdi. Eymen onu görəndə pis olurdu. Təsəvvür

edin ki, sevdiyiniz adam sizin xoş günü-nüzə gəlib, sən isə başqası ilə nişanlanır-san. Məncə, çox kədərli hissdir. Nə isə... Eymen özünü toparladı. Onların nişanı ol-du. Mərasim bitəndən sonra bir-iki qo-humdan başqa hər kəs evinə getdi. Saat 9 idi. Eymen həyətə düşdü. Aylin də həyət-də idi. Onlar bir-birlərini gördülər. Ey-men Aylini görsə də, özünü görməzliyə vurdu. Amma Aylin onun qolundan tutub, getməsini əngəllədi.

Aylin dedi:

-Allah xoşbəxt eləsin.

Eymen:

-Bilirsən necə hissdir bu?

Aylin:

-Anlamadım?!

Eymen:

-Bilirsən ürəyində biri ola-ola başqa qızla evlənib zorla özünü sevməyə məc-

bur etmək necə hissdir? Bilirsən necə hissdir iki daşın arasında qalmaq? Bilirsən bunları? Sənin mənə "Allah xoşbəxt eləsin" deməyə haqqın yoxdur. Çünki, sən məni üzüyü əlimə verən gün bədbəxt etmisən. Gülərüz, vecsiz görünməyimə baxma! İçimdə fırtına qopur!!! Sağ ol!

Aylin bu sözlərə çox pis oldu və dedi:

-Üzr istəyirəm..

Eymen:

-Bu gün kəpənəyin canını yandırıb ertəsi gün üzr istəyə bilməzsən!

Aylin ona yaşatdıqlarına görə çox peşiman idi. Qəhərdən boğulurdu. O, dözə bilməyib evə qayıtdı, çox ağladı. Səhər açılanda Nərminin anası Eymengilin həyətindən Aylini çağırdı:

-Aylin! Aylin! Gəl kömək elə qabları yuyaq.

Aylin gəldi. Dünən gecə o qədər aglamışdı ki, gözlərinin altı qapqara şiş idi. Yaman günə düşmüşdü. O, Eymengilin həyətinə keçəndə qəfil Eymen önünə çıxdı. Gözlərinə baxdı və bildi ki, bu gecə çox ağlayıb. Eymen arxadan ona dedi:

-Özünü bu qədər üzmə! Artıq nə qədər ağlasan da, çağlasan da keçmiş geri qayıtmayacaq. Qırılan qəlb sağalmaz!

Aylin:

-Gəl barışaq! Söz verirəm, bir də səni incitməyəcəm.

Eymen:

-İlk öncə mənim nişanlım var. Mən sənin kimi acımasızlıq edib, məni dəlilər kimi sevən birini yarı yolda qoyub, qəlbini qırmaram! Amma sən bunu elədin! Bir də, bir söz deyim: -Heç yerə düşüb çilik-çilik olan stəkanda su içə bilərsən?

Aylin dedi:

-Yox, içə bilmərəm, qırıqdı axı.

Eymen:

-Həyat da belədir, Aylin! Dərk et artıq bunu!

Qəhər Aylini boğdu, dözə bilməyib ağladı və qab yumağa gedə bilmədi.

Toya cəmi 1 gün qalmışdı. Aylindən başqa hər kəs çox sevincli idi. Aylin Eymenə nişanı qaytardıqdan sonra başqası ilə nişanlandı. Amma nişanlısı nişanı qaytardı. Ona görə deyirlər ki, "Həyat elə bir möcüzədir ki, insan yaşatdıqlarını görmədən bu həyatdan köçmür!".

Bu, heç kimin dəyişə bilmədiyi bir həqiqətdir!

Səhər açıldı. Hər şey hazır idi. Nərminin makiyajını Aylin etdi. Qabiliyyəti yaxşı olduğu üçün bu iş ona tapşırılmışdı. Aylin işini qurtardı. O, sınmış qəlbində çox ağır hisslər keçirirdi. Onun bu vəziy-

yətini hər kəs hiss edirdi. Niyə belə olduğunu soruşanda isə yalnız bir cavab verirdi: “Ruhum ölüb, cismim qalıb!”. İnsanlar onu anlayır, amma heç nə demirdilər.

Toy bitdi, dünyada yeni bir ailə yarandı. Onlar bir-birləri ilə xoşbəxt olmağa çalışacaqlarına and içmişdilər. Toyun səhəri bir xəbər gəldi. Daha doğrusu səhər açılanda qonşudan fəryad, qışqırıq səsi gəldi. “Can qızım, anan ruhuna qurban! Niyə belə elədin?!”- deyə bir ana fəryad edirdi. Bu qonşu Aylinin anası idi.

Bəli, Aylin həyatına qəsd etmişdi. Aylin bütün bunlara dözə bilməyib, canına qıymışdı… Ağır hissdir, deyilmi!?

Aylin şüşə qırığı ilə qan damarını kəsərək qanaxmadan ölmüşdü. Şüşə isə adi şüşə deyildi. Nişanlı vaxtı Eymen Aylinə ad günündə içində öz şəkilləri olan bir çərçivə hədiyyə etmişdi. Həmin çərçivə-

nin şüşəsi ilə özünü öldürmüşdü. O, bir kagiz yazıb qoymuşdu.

Şansdan bu kağız ilk öncə Eymenin əlinə keçdi. Kağızda belə yazılmışdı:

“Eymen mən səni sevirdim. Bir səhv elədim, nişanı qaytardım, xəyallarını qırdım. Buna görə səndən həqiqətən üzr istəyirəm. Bir söz deyim. İndi sən bunu oxuyanda mən cəhənnəmdə olacam. Niyə cəhənnəm deyirəm bilirsənmi? Canına qəsd edən bütün insanların yeri sözsüz ki, cəhənnəmdir. Bilirəm, üzr kifayət etmir. Amma yenə də deyirəm. Bağışla, üzr istəyirəm. Eymen mən əslində həyatdan bezməmişdim, hətta deyim ki, həyat çox maraqlı idi. Amma bu gözəl həyata sənə görə əlvida elədim.

Peşman da deyiləm. Sənə elədiklərimin yanında azdır. Eymen sənə həyatında

uğur və xoşbəxtlik arzulayıram. Sağ ol. Özünə və Nərminə yaxşı bax! Əlvida!”.

Yazan: nifrət etdiyin qız, Aylin...”.

Eymen bunu oxuyanda göz yaşlarını saxlaya bilmədi.

## 40 GÜN SONRA

Eymen hamıdan gizli hər gün gedib Aylinin uyuduğu torpağa su tökür, onun məzarı ilə danışır, istər-istəməz pis olurdu. Heç kəs bunu bilmirdi. O, bunu hər gün edib artıq bir vərdişə çevirmişdi. Bir gün belə onun torpağını, məzardakı çiçəkləri susuz qoymurdu. Aradan illər keçdi. Eymen və Nərminin övladı olmurdu. Bu səbəbdən onlar çox pərişan idilər. Qohumları, dost-tanışları, qonşuları da onların bu vəziyyətini düşünür, onlara dəstək olmağa çalışırdılar. Artıq 4 il keçmişdi.

Ümidləri üzülməyə doğru gedirdi. Təcrübəli həkimlərə müraciət etmişdilər. Ancaq bir fayda yox idi. Bir dəfə Eymen oturub fikirləşir, öz-özünə deyirdi: “Axı niyə mən ata ola bilmirəm? Mən bir vaxtlar gizli qapıları açanda hər şey gerçəyə çevrildi. Ancaq xoşbəxtlik gerçək olmadı. Ən vacib şey gerçəyə çevrilmədi. Ən imkansız şeylər oldu, ancaq xoşbəxtlik yox. Niyə axı?”. O, fikirlər qoynunda yuxuya daldı. Yuxusunda üzü nurlu bir adam ona dedi: “Səbr elə, oğlum! Sən güclüsən, sadəcə səbr elə!” Səhər oyanıb, yuxusunu xatırladı. Ürəyi az da olsa, rahatlıq tapdı. Qalxıb işə getdi. Qəlbində bütün günü həmişəkindən fərqli olaraq bir rahatlıq var idi.

## 6 GÜN SONRA

O, bir gün işdən evə gələndə Nərminin əlində bir qutu gördü. Qutunun içində nə olduğunu soruşanda Nərmin belə cavab verdi: “Xoşbəxtlik, sənə dünyanın ən böyük hədiyyəsi. Əmin ola bilərsən ki, bu qutunun içindəki hədiyyə sənə bu günə qədər verilən hədiyyələrin ən gözəlidir”. Eymen qutunu açdı. Gözlərinə inana bilmədi. Sevincdən az qala göylərə uçacaqdı. Qutunun içindən 2 uşaq ayaqqabısı çıxdı. Onlar bu xəbəri yaxınlarına dedilər. Hər kəsin üzü gülürdü, çox sevincli idilər. Eymenin ağlında bir fikir var idi: dünyaya gələcək qızlarının birinin adını Aylin qoymaq. Amma bunu Nərminə necə deyəcəyini bilmirdi. Nəhayət bir gün cəsarətini toplayıb dedi. Nərmin qəbul etdi. Vaxtvədə yetişdi və əkizlər dünyaya gəldi. On-

ların birinin adını Aylin, digərinin adını isə Ayla qoydular.

Eymen Aylini unuda bilmirdi. Bu o demək deyildi ki, hələ də onu sevir, Nərmini sevmir. Yox, onu dostcasına unutmamışdı.

Qızlar çox şirin idi. İkisinin də üzündən nur yağırdı.

## 1 İL SONRA

Gün keçdi, ay dolandı, il ötdü... Artıq bu gün Aylin və Aylanın 1 yaşları olurdu. Ailə qərar verdi ki, qızlarının bir yaş partisini restoranda qeyd etsinlər. Ailə çox şirin görsənirdi. Ana və qızları dəst geyinmişdi. Bu da mərasimə ayrı ab-hava qatırdı. Onların günü çox xoş keçdi. Doğum gününü qeyd etdilər. Axşam evə qayıdanda isə başlarına dəhşətli bir hadisə gəldi.

Yolda maşın qəzası oldu. Qəzada Esmira nənə, Aylin yerindəcə həyatlarını itirdilər. Nərmin, Eymen, Ayla sağ idi.

Onlar heç nəyin fərqində deyildilər. Baş verənlər sanki yuxu idi. Tezliklə əraziyə polis əməkdaşları və təcili tibbi yardım gəldi. Onları xəstəxanaya apardılar. Esmira nənə və Aylinin meyitlərini morqa göndərdilər. Onların ölüm xəbəri hər kəsi kədərləndirmişdi.

Həyatın həqiqətən qaçılmaz acılıqları olur. Aylin ilk yubiley doğum günündə həyatdan köçdü.

Komadan ilk ayılan Ayla oldu. Eymen və Nərminin yaxınları xəstəxananın önünə yığışmışdı. Nəhayət, növbətçi həkim onlara gözlədikləri xəbəri dedi: “Xəstələr komadan ayıldı!”.

Eymen komadan ayılan kimi ailəsini soruşdu. Ailənin vəziyyətini həkim ona

demədi. Çünki, o bu xəbəri eşitsə idi infarkt ola, bəlkə də ölə bilərdi. Aradan 15 gün keçdi. Artıq onların vəziyyəti stabil idi. Nərmin və Eymen qızları və nənəsi ilə görüşmək istədi. Həkimlər həqiqəti onlara demək istəyirdilər. Düşünürdülər ki, axı nə qədər bunu gizlin saxlamaq olar? Əvvəl-axır biləcəklər. Qərar verdilər ki, desinlər. Həkim palataya keçib dedi:

-Sizə bir xəbərim var. Amma təəssüflər olsun ki, pis xəbərdir.

Eymen:

-Deyin, nədir o pis xəbər?

Həkim:

-Ailə üzvlərinizdən 2 nəfər dünyadan köçdü. Allah rəhmət eləsin!

Bunu eşidəndə Eymen yerində donub qaldı. Nərmin isə qolundakı sistemi qəfil çıxararaq, ayağa qalxdı və fəryad etdi. Həkimlər onu saxlaya bilmirdi. Eymen

hələ də şokda idi. Gözünü belə qırpmır, heç nəyə reaksiya verməyib otururdu. Qəfil gözləri açıq şəkildə arxaya yıxıldı. Həkimlər nə qədər müdaxilə göstərsələr də, nə qədər qəlb masajı etsələr də heç bir faydası olmadı.

Təəssüflər olsun ki, Eymen də həyatdan köçdü. Bəli, bu faciə idi. Bir aydan sonra Nərmin və Ayla xəstəxanadan çıxarıldı. Nərminin gözləri qapqara şiş idi, yaman günə qalmışdı. Ayla hələ çox balaca olduğu üçün heç nə anlamırdı. Ətrafdan onlara dəstək çox idi. Amma atasız ailə ona ağır gəlirdi.

## 1 İL SONRA

Artıq Ayla 1 yaş 2 aylıq idi. Nərmin işləyib pul qazanmağın necə vacib olduğunu anlayırdı. Heç bir yerdən maddi gə-

liri yox idi. Bir gün ona restoranda aşpaz işləmək təklifi gəldi. Ayda 450 manat maaş alacaqdı. O, işə başladı, amma bir müddət sonra başına arzulamadığı hadisə gəldi. Əslində ciddi bir şey deyildi. Sadəcə iş müdiri bunu böyütdü. Həmin gün Nərmin səhər tezdən oyanıb işə getdi. Hazırlaşıb, yemək bişirməyə başladı. Sonda yeməkləri boşqaba qoyub servis etmək lazım idi. Bu zaman ehtiyatsızlıqdan boşqabın biri yerə düşərək sındı. Nə qədər üzr istəsə də heç bir faydası olmadı. Müdir onu işdən çıxartdı. Nərmin evə gəldi. Ancaq çox dilxor idi. Oturub ağladı. Həyatını götür-qoy etməyə başladı. Öz-özünə dedi: "Həyat, sən niyə beləsən? Niyə amansızsan? Mən sənə nə etmişdim ki, bütün bunları mənə yaşatdın?"- deyə, sual verdi. Amma cavab ala bilmədi. Əslində Nərmin xaraktercə çox güclü qadın idi. Sadəcə həyat ona

böyük çətinliklər vermişdi. Həyatı çox sərt keçirdi.

## 5 İL SONRA

Artıq Aylanın bu gün 5 yaşı olurdu. Ötən illər ərzində ana-bala çox sınaqlardan keçdilər. Elə bil həyatın bütün çətinlikləri onların üstündə idi. Bir gün onlar yenə pis xəbər öyrəndilər. Nərmin ağır anemiya xəstəsi idi. Əgər ona uyğun qan vurulmasaydı ölə bilərdi. Qan axtarılırdı.

Qanı isə ən çətin tapılan qan qurupu (IV) idi. Xeyli axtardılar. Ancaq tapa bilmədilər. Bir gün bir oğlan Nərminə qan vermək istədi. Amma həkimlər bunu qəbul etmədi. Çünki, həmin oğlanın xəstəliyi vardı və yaşı az idi. Sonda qan tapıldı. Nərminə köçürüldü. Amma o bir neçə il yaşadı. Ölməmişdən bir gün öncə belə bir

yuxu gördü ki, Eymen ona deyir: “Yanıma gələcəksən”.

Artıq Aylanın 7 yaşı var idi. Hələ o anasızlığın nə olduğunu bilmirdi.

Aylanı nənəsi saxlayırdı. Nənə Aylanı öz qızı kimi sevirdi. Onun gələcəyi üçün planlar qururdu. Nəvəsini oxutmaq nənənin ən böyük arzusu idi. O, Aylanı xoşbəxt görmək istəyirdi. İstəyirdi ki, Nərminin yaşaya bilmədiyi həyatı Aylaya yaşatsın. Hələ bir dəfə də olsun Aylaya qışqırmamışdı, onu kötəkləməmişdi. Tək məqsədi onu xoşbəxt etmək, valideynsizlik hissini ona bildirməmək idi.

## 10 İL SONRA

Aylanın 18 yaşı olurdu. Orta məktəbi bitirmişdi. O, imtahan vermişdi və tibb universitetində stomotoloq ixtisası üzrə ali təhsil alırdı.

Ayla doğum günlərini qeyd etmək istəmirdi. Səbəbi isə onun doğum günündə ailə faciəsinin baş verməsi idi. Ad gününü keçirməyə qəlbi razı olmurdu. İndi o ailəsinin yoxluğunu bilir və bunu qəbul edirdi. O, həftədə bir neçə dəfə gedib ailəsinin məzarına baş çəkirdi.

Bir gecə yatanda onun yuxusuna üzü nurlu bir qadın girdi. Qadın ona dedi: "Kəndin qurtaracağında olan otağa get!".

Ayla səhər yuxudan oyananda gördüyü yuxunu xatırladı, ancaq heç bir reaksiya vermədi. Hazırlaşıb universitetə getdi. O, universitetdən qayıdandan sonra oturub dincəlirdi. Birdən telefonundan bildiriş səsi eşitdi. Telefonu açıb baxanda tanımadığı bir nömrədən ona mesaj gəldiyini gördü.

Mesajda deyilirdi: “Salam, Ayla. Necəsən? Sənə bir söz deyəcəm. Bunu sənə demək üçün zorla özümdə cəsarət tapmışam. Mən səni sevirəm. Həyatının qalan hissəsini mənimlə keçirərsən?”.

Ayla bunu gedib nənəsinə dedi. O, nənəsi ilə dost kimi idi. Hər sirrini, sözünü onunla paylaşırdı. Nənə də hər dəfə mülayimliklə Aylanı xoşbəxt edə biləcək qərarlar verməyə çalışırdı.

Nənəsi dedi:

-Qızım, sən bu oğlanı tanıyırsan? Görmüsən?

Ayla:

-Xeyr, görməmişəm..

Nənə:

-Onda soruş gör kimdir? Və sənə bir tövsiyəm var. Əvvəlcə səni həqiqətən sevib sevmədiyini öyrən! Ondan sonra qarar verməyə çalış.

Ayla:

-Baş üstə, nənə can!

Bir müddət sonra oğlan yenidən yazdı. -

-“Çətin sual oldu?”

Ayla ona cavab verdi.

-Sən məni görmüsən?

Oğlan:

-Bəli.

Ayla:

-Bəs mən səni niyə görməmişəm?

Oğlan:

-Bəlkə də görmüsən, sadəcə adımı bilmirsən. Ola bilməz?

Ayla:

-Adın nədir?

Oğlan:

-Ares.

Ayla:

-Mən bilmirəm, sən məni həqiqətən sevirsən, ya yox. Güvənə bilmirəm. Birdəki səni görməmişəm, tanımıram.

Ares:

-Mən elə belə oğlan deyiləm. Tam əminliklə güvənə bilərsən. Güvən! Fikirləş cavab ver, gözləyirəm.

Ayla:

-Oldu, yaxşı, sağ ol.

Ares:

-Sağ ol, Ayla.

Onların söhbəti bu cür oldu.

Ares uzunboylu, buruq saçlı, savadlı oğlan idi, universitet bitirmişdi. Bu il əsgər gedirdi.

Ayla yatdı. Bu gecə də onun yuxusuna üzü nurlu bir kişi gəlib, kəndin sonunda olan otağa getməyini ondan xahiş etdi. O, bu səhər də oyananda yuxusu barədə heç fikirləşmədi, hazırlaşıb universitetə getdi.

3 gün həmin adam Aylanın yuxusuna girib ora gəlməyini xahiş etdi. Artıq Ayla bundan şübhələndi. Hər şeyi nənəsinə danışdı.

Nənə dedi:

-Bəzən bunlar işarət olur. İstəyirsənsə get.

Ayla hazırlaşıb kəndin qurtaracağına tərəf getdi. Həmin yerdə heç nə yox idi. Ayla yolunu dəyişib gəlmək istəyəndə qəfil bir otaq peyda oldu. Bu otaq Eymenin bir zamanlar gəlib qapılarını açdığı otaq idi. Ayla qapıdan içəri girdi. Qapı örtüldü. İçəridə 10 qapı, ortada isə sehrli işıq var idi. Ayla birdən qorxmağa başladı. Sehrli ışıq qəfildən danışdı: “Belə edib səni qorxutmaq istəməzdim. Amma inan ki, sənin pisliyini istəmirəm. Bu otaq və bu qapılar xoşbəxtlik qapılarıdır. Bir vaxtlar bu qapıları atan Eymen gəlib açıb. İndi sıra sən-

dədir. Bir kəsə deməmək şərti ilə bunu edə bilərsən?”.

-Mən bir az qorxuram, yəqin ki məni anlayırsan.

Sehrli ışıq:

-Bəli, səni çox yaxşı anlayıram. Amma dediyimi etsən, bu qapılardan bir xoş xəbər eşidəcəksən.

Ayla:

-Razıyam!

Sehrli ışıq:

-Çox gözəl. Onda sabahdan hər səhər saat 6-da, 10 gün müddətində gəlib hər gün bir qapı açacaqsan. Əgər geciksən qapı açılmayacaq.

Ayla:

-Tamam, gecikmərəm. Sağ olun.

Ayla universitetə bir az gecikmişdi. Qaça-qaça oradan çıxıb universitetə yollandı. Saat 5-də dərsdən çıxıb, evə qayıt-

dı. O, bu gün olanların heç birini nənəsinə deyə bilmədi. Amma daxilən rahat idi. Heç nə olmamış kimi dərslərini hazırladı. Axşam oldu və yatmaq vaxtı gəldi. O yatmağa hazırlaşırdı ki, birdən Aresdən mesaj gəldi.

-Salam necəsən? Təklifə cavab nədir?

Ayla:

-Ares, bağışla, səni gözlətdim. Amma əgər səbrlisənsə məni bir qədər gözlə.

Ares bunu qəbul elədi. Çünki bilirdi ki, sonda Aylanın cavabı "hə" olacaq.

Səhərisi gün Ayla gedib ilk qapını açdı. Qapını açanda rastlaşdığı olay onu heyrətləndirdi. Gələcəkdə baş verəcək kiçik hadisələri, hər gün bir insanın ona təşəkkür edəcəyi və itkin bir əşyanın tapılacağı mesajını aldı.

Sonrası gün ikinci qapını açanda başqa bir anons aldı: Bir quş ona xoş xəbər gəti-

rəcəkdi, bu xəbər isə bir oğlanın onu sevməsi idi.

Üçüncü qapıdan aldığı xəbər onu məmnun etdi: “Onun kömək etdiyi insanlar uğur qazanır və Aylaya dua edirlər”.

Dördüncü qapını açanda bir quş ona məktub verdi. Məktubda yazılmışdı: “Bir insan səni çox düşünür, gələcəkdə sənin ailə quracağın insan Ares adlı bir oğlandır”.

Növbəti gün beşinci qapını açanda ona belə deyildi: “Sən çox bacarıqlı, eyni zamanda güclüsən”.

Sonrası gün gəlib altıncı qapını açdı. Bu qapıda ona: “Sən birinin ruhunu gözəlləşdirdin, birinin ürəyinə sənin ona “hə” deyəcəyin hissi dolub”- deyə, söyləndi.

Ayla onun kim olduğunu anladı. Üzündə təbəssüm yarandı.

Növbəti gün yeddinci qapını açdı. Bu qapıda qeybdən səs gəldi: “10-cu qapını açanda çox sevinəcəksən”.

Ertəsi gün gəlib səkkizinci qapını açdı. Bu qapını açanda ona sürpriz oldu. Onun başından qızılgüllər yağış kimi yağdı.

Növbəti gün Ayla doqquzuncu qapını açdı. Bu qapını açanda özünü bir çəmənlikdə gördü: ətrafda kəpənəklər uçurdu, hər yan yaşıllıq idi, təbiətin gözəlliyi insanın ruhunu oxşayırdı. Bu, yarım saat davam etdi. Yarım saat sonra o özünü evdə tapdı. Növbəti gün o gəlib onuncu qapını açdı.

Həyəcanlı idi. Bu qapıda ona deyildi: “Valideynlərin 15 dəqiqəlik gözünün önündə canlanacaq, Onlarla söhbət edə biləcəksən”.

O, nə valideynlərini, nə də bacısını həyatda canlı görmüşdü. Çox həyəcanlı, bir

o qədər də sevincli idi. Nəhayət, o, valideynlərini, bacısını, Esmira nənəni gördü. 15 dəqiqə sonra o yenə özünü evdə tapdı.

Ayla çox sevincli idi. Ürəyində böyük bir rahatlıq vardı. Düşündü ki, Aresə cavab yazsın:

-Salam, necəsən? Təklifini düşündüm.

Ares:

-Salam, Ayla. Yaxşıyam, şükür, sən necəsən? Buyur de, "hə" desən sevincimdən uçacam.

Ayla:

-Hə!

Ares:

-Ayyy, çox sevindim. Çox sağ ol!

Ayla bütün bunları nənəsinə danışdı. Nənəsi Aylanın fikirlərinə hörmətlə yanaşdığı üçün bunu da qəbul etdi. Onlar hər gün danışır, bir-birləri ilə maraqlanır-

dılar. 1 il 3 ay sevgili oldular. Ondan sonra qərara aldılar ki, ailə qursunlar.

Ares ailəsini razı saldı və Aylaya elçi getdilər. Aresin ailəsi ilk öncə Aylanı istəmirdi. Bununla yanaşı Aresin fikirlərinə hörmətlə yanaşırdilar. Bir gün toparlanıb elçi getdilər. Ayla onların istəksiz olduqlarını hiss etmişdi və buna görə pis olurdu. Fikirləşirdi ki, axı, mənim hansı pis hərəkətimi görüblər ki, məni istəmirlər? Bu sualı bir neçə dəfə Aresə vermişdi.

Ancaq əsas onların xoşbəxtliyi idi. Onlar bir-birlərinə söz vermişdilər ki, kənar təsirlərə baxmayaraq öz həyatlarını istədikləri kimi, xoş, səmimi yaşayacaqlar.

Buna baxmayaraq, axırda “hə”sini verib, onları nişanladılar.

Bundan 2 ay sonra Ares əsgər getdi. Aylanın onda bir neçə şəkli var idi. Bu şəkilləri  döş cibinə qoymuşdu. Hər darıxan-

da istəkli arvadının şəkillərinə baxıb onun ruhundan dəstək alırdı.

Bir gün radioda, televiziyada, saytlarda bir xəbər yayıldı. Xəbər verildi ki, sərhəd pozucuları ilə atışma olub. Biz tərəfdən səngərdə 3 şəhid hərbçi, 2 yaralı var. Bunu eşidəndə hamı qəm dəryasına batdı. Ayla çox narahat idi. Fikirləşirdi ki, birdən şəhidlərin içində Ares olar. Sonra televiziyada şəhidlərin və yaralananların adları çəkildi. Yaralıların içində Aresin də adı var idi. Bu xəbərdən Aresin anası fəryad elədi. Ayla qəm dəryasına batdı. Areslə əlaqə saxlamaq mümkün deyildi.

Heç kəs gözlərini televiziyadan çəkmirdi. Sonra xəbər gəldi ki, yaralananların biri dünyasını dəyişib, digəri isə palataya köçürülüb. Bunu eşidəndə Ayla bayıldı.

Dünyasını dəyişən Ares deyildi. Başqa bir hərbçi idi. Aresin palataya köçürülmə-

sini eşidəndə Ayla xəstəxanaya getdi. Amma içəri girməyə qoymadılar. Səbəbi xəstənin vəziyyətinin qəfil ağırlaşmışı idi. Aylanın dua etməkdən başqa çarəsi yox idi.

Bir neçə gün keçdi. Amma Aresin vəziyyəti hələ də yaxşı deyildi. Ayla həkimlərdən xahiş etdi ki, bir dəqiqəliyə içəri girsin, axı, bu, onların son görüşü ola bilərdi. Həkimlər icazə verdi. O, palataya girdi. Aresin vəziyyətini görəndə özünü saxlaya bilməyib hönkürdü. Ares ürəyindən, başından ağır yaralanmışdı. Sinəsi, üzü-gözü sarıqlı idi.

Burada bir möcüzə oldu. Ayla yaxınlaşıb Aresi qucaqladı. Bu vaxt Aylanın göz yaşı Aresin yarasına damcıladı. Qəfil Aresin vəziyyəti düzəlməyə başladı. Həkimlər şokda idi. Hamı sevinirdi. Çox keçmədi ki, Ares sağaldı. Ancaq sağalsa da daha orduda qulluq edə bilməzdi, səh-

hətinə görə onu ordudan tərxis etdilər. O, evə qayıtdı.

## 1 AY SONRA

Bir gün ailələr görüşüb toyun vaxtını təyin etdilər. 2 aydan sonra toy idi. Bütün hazırlıqlar görülmüşdü. Sevgililərin birləşməsinə əngəl olan bir şey yox idi. Onlar yalnız gələcək xoşbəxt ailələri haqda düşünürdülər.

Ares çox qısqanc idi. Ayla bir neçə dəfə ona sual vermişdi: "Niyə belə qısqancsan?".

O isə hər dəfə cavabında deyirdi: "Sevən qısqanar".

Ayla bu qısqanclığı zahirdə soyuq qarşılasa da içində Aresin onu qısqanmağı xoşuna gəlirdi.

Nəhayət, iki ay başa çatdı. Onların toyu oldu. İndi onlar bir ailə idi. Hər kəs çox sevincli idi. İlk vaxtlarda Aresin ailəsi Aylanı soyuq qarşılasa da, sonradan hər şey düzəldi. Ayla da həmişə özünü sevdirməyə çalışırdı.Bu isə Aresi daha çox xoşbəxt edirdi.

Bir müddət sonra onlar ailələrinə bir mələyin qismət olacağını öyrəndilər. Bu xəbər kər kəsi sevindirdi.

Bir gün gözlənilməz bir xəbər yayıldı ki, bəs, Aresin Almanyada bir oğlu var imiş. Bu xəbərə bəziləri inandı, bəziləri inanmadı. Hətta Ayla da inanmışdı. Ares hər kəsə deyirdi ki, bu ola bilməz. Belə şey mümkün deyil. Bu yalan məlumatdır. Onun təşvişlə etdiyi and-amana yaxından tanıyanlar inanırdı, amma skeptik yanaşanlar da vardı. Bir dəfə Ayla Aresə dedi ki, gəl sənin oğlun olub-olmadığını tam

dəqiq bilmək üçün araşdırma aparaq. Buna görə DNT analizi vermək gərəkdir. Əsl cavab onda bilinəcək. Ares razılaşdı. Lakin Aresin oğlu olduğunu iddia edən Alp razılaşmadı. Sonra məcburiyyətdən etiraz etmədi. DNT analizi verildi. Bir neçə gündən sonra cavablar çıxdı. Bu zaman Alp Aresə dedi:

-İcazə ver, mən gedib götürüm cavabları.

Ares bunda pis bir şeyin olmadığını düşünüb, razı oldu. Kağızda əslində Alpın Aresin oğlu olmadığı göstərilirdi. Buna görə də Alp cavabları evdə açıqlamadı, Aresə isə həkimin cavabları vermədiyini söylədi.

Bir gün Ares qərara aldı ki, gizlincə gedib həkimdən cavabları soruşsun. Ertəsi gün həkimin yanına getdi. Ondan cavabı soruşdu.

Həkim dedi: “Bir oğlan gəlib cavabı apardı. Mən vermişəm cavabı”.

Bunu eşidəndə hər şey Aresə aydın oldu. Həkimdən soruşdu:

-Bəs, cavabın məzmunu yadınızda qalıb?

Həkim:

-Cavabda onun əslində sizin oğlunuz olmadığı çıxmışdı.

İndi bütün qaranlıq olan hər şey Aresə aydın oldu. Gedib bunları ailəsinə danışdı. Hamı məəttəl qalmışdı. Bundan sonra hamı üçün bir məsələ maraqlı idi. Nəyə görə o yalan deyib? Məqsədi nədir?

Onlar belə qərara gəldilər ki, cavabı bildiklərini Alpa deməsinlər, sadəcə həqiqəti öyrənmək üçün bir oyun oynasınlar. Aradan 1 ay keçdi, ancaq Alpa hələ də heç nə bildirməmişdilər. Elə davranırdılar ki, elə bil o, həqiqətən Aresin oğludur.

Gəlin bir az sizə Alpdan danışım.

Bu şəxsin 16 yaşı var. Uzunboy, qara saçlı, qəhvəyi gözlü bir oğlandır. Məqsədi isə Aresin üstünə böhtan atıb, sonda onun var-dövlətini mənimsəmək idi. Ata-anası da vardı. Onlar da bu işin içində idi. Qısası, bütün ailə dələduzluqla məşğul idi. Onlar əvvələr bir neçə ailəyə böhtan atıb, varını-mülkünü əllərindən almışdılar.

Elə düşünürdülər ki, bu ailəni də şərləyib əllərində olanı alacaqlar. Aresin ağıllı bir planı var idi. O, onkoloji xəstə roluna girdi. Güya onkoloji xəstədir və ömrünün bitməsinə az qalıb. Bir gün doğmalarını, ən əsası da Alpı çağırıb quraşdırdığı ssenarini danışdı. O, varını-mülkünü bölmək istədiyini dedi. Bunu eşidən kimi Alp dedi:

-Ata, mənə qoy malını-mülkünü.

Ares:

-Mən hər şeyi sənə qoya bilmərəm. Bəs, mənim yolda olan, hələ ata üzü görməyən qızım? O necə olacaq?

Alp:

-Atacan, bacım dünyaya gələndən sonra mən özüm ona layiqincə baxacam. Sən hər şeyi mənə qoy!

Sonra Ares qəfildən ayağa qalxdı və bütün olanları Alpa dedi. Alp şok oldu və utancaq vəziyyətdə qapıdan çıxmaq istədi, ancaq Ares onu saxladı və polisə təslim etdi. Bundan sonrakı həyatında onu və ailəsini ömürlük həbs cəzası gözləyirdi. Beləliklə, bu çətinliyin öhdəsindən gəldilər. Və vaxt-vədə yetişdi, onların qızları dünyaya gəldi. Adını isə Alisa qoydular. Alisa mavi gözlü, toppuş, bal kimi şirin qız idi. Onlar evə gələndən sonra şənlik keçirdilər. Şənliyə çoxlu adam gəlmişdi.

Qonaqlar arasında tanımadıqları xeyli insan var idi.

Ares və Ayla bir müddətdən sonra Alisada nəsə qəribəlik olduğunu hiss etdilər. Bir dəfə Ares otağa girəndə, Alisanın göydə uçduğunu gördü. Heyrətlənmiş və bir az da qorxmuş vəziyyətdə Aylanı çağırdı. Çox keçmədi ki, onlar Alisanın bir pəri olduğunu öyrəndilər. Bəli, Alisa sehrli gücləri olan bir pəri idi. O, sehrli gücləri vasitəsilə istədiklərini edə bilir, göy üzünə qalxır, uçurdu.

## 20 İL SONRA

Artıq Alisa böyümüşdü. Hamıdan fərqlənirdi. O, səmadan bir məlumat aldı. Öyrəndi ki, yer üzündə ruhu onun ruhu ilə eyni olan əks cinsli bir pəri var. Hər iki pərinin məqsədi bir-birini tapmaq idi. Ali-

sa Türkiyədə, əks cinsli pəri isə Almaniyada yaşayırdı. Onlar fərqli ölkələrdə qalırdılar. İkisinin də tək bildikləri bir şey vardı: “Gec də olsa, nə vaxtsa görüşəcəklər”.

Alisa qalaktikanın dərinliklərinə gedə bilir, göydə uçur, hər kəsə sehrləri ilə yaxşılıq etməyi bacarırdı. Əsk cinsli pəri də bütün bunlara sahib idi. Yeri gəlmişkən, onun adı Arslan idi. Yer üzündə iki pəri var idi: Arslan və Alisa. Onlar varlıqları barədə məlumat alan andan yeddi ay sonra bir-birlərini tapdılar.

Gəlin, sizə onların qarşılaşma hadisəsini danışım. Alisa bir gün sıxılırdı. O, qərara gəldi ki, gedib qalaktikanı gəzsin. Asimana yüksəlib ulduzları, ayı, yaxından izlədi. Bu zaman Arslan onu gördü, ancaq yaxınlaşmadı, ulduz olub onu izləməyə başladı. Alisa evə qayıdanda çiyninin üs-

tündə bir ulduzun parladığını gördü. Amma bu ulduz başqalarından fərqli idi. O, bu ulduzun qoruyucu bir ulduz olduğunu düşündü. Bir neçə gün keçdi, ancaq ulduz hələ də onu izləyirdi. Alisa bilirdi ki, qoruyucu ulduz qalaktika tərəfindən göndərilir və 8 gün qalır. Amma bu ulduz uzun müddət idi ki, onunla idi. Ulduzun bu qədər çox parlamasının səbəbi Alisanın ürəyinin saf, təmiz olmasına bağlı idi. Amma Alisa bunu bilmirdi. Bir neçə gündən sonra Alisa aynaya baxaraq öz-özünə dedi: "Allahım səndən səmimi qəlbdən xahiş edirəm, nə olar, mənə kömək et o pərini tapım!".

Bunu eşidəndə Arslan qəfil ortaya çıxdı və dedi:

-Salam, mənəm o pəri!

Alisa:

-Doğrudan?

Arslan:

-Bəli.

Alisa əllərini göyə tutaraq dedi: “Allahım, sənə şükürlər olsun, duamı qəbul etdin!”.

Arslan dedi:

-Bu günə qədər sənin çiyninda olan ulduz mən idim. Səni izləyirdim.

Artıq hər şey Alisaya aydın idi. Onlar bir-birlərini tapdıqları üçün çox sevincli idilər. Alisa Arslana çox güvənirdi.

Pərilər də pəri olmalarına baxmayaq sevə bilir, insanlar kimi yaşayırlar.

Elə ilk görüşdən onlar bir-birlərinə vuruldular, sevgili oldular. Alisa Arslana möhkəm tellərlə bağlandı. Onsuz yaşamağı təsəvvür edə bilmirdi. Zaman-zaman onların arasında anlaşılmazlıq yaranırdı. Ancaq sonda Arslan bunu aradan qaldırırdı. Alisa əslində heç nə anlaya bilmirdi.

Özünə suallar verirdi: - Əgər sevirsə, niyə arada soyuqlaşır? Niyə anlamadığım hərəkətlər edir? Amma cavab tapa bilmirdi. Onlar əsasən yalan üstündə mübahisə edirdilər. Arslan Alisanın dediklərini bəzən yalan qəbul edirdi. Bu isə Alısanı narahat edirdi. O həqiqətən Arslanı sevirdi. Amma ayrılanda pis olmurdu. Buna təəccüblənirdi: "Əgər mən onu sevirəmsə niyə ayrılanda pis olmuram?". Amma bunun cavabı çox aydın idi. Çünki, Alisa bilirdi ki, hər dəfə Arslan mesaj yazıb onunla barışacaq. İstər-istəməz Alisanın içində Arslanın sevgisinə görə şübhə yaranırdı. Arslan sonda elə bir yalan danışdı ki, Alisa bundan çox təsirləndi və onlar ayrıldılar. Arslan Alisaya tez-tez deyirdi: "Mən səni çox sevirəm", "Sənə qarşı fikrim ciddidir", "Sənə görə hər şeyi edərəm".

Bu cümlələr həqiqət kimi görünsə də yalan idi. Arslanın qəlbində həqiqi sevgi yox idi. Amma Alisa ilk dəfə birini bu qədər ürəkdən sevmişdi. Alisa Pəri olmağına baxmayaraq namaz qılır, dualar edirdi. Ən əsası Alisanın bütün dualarında Arslan var idi. Alisanın xarakterində qürur sevgidən güclü idi. Onun qüruru yalnız Arslana yox, hamıya qarşı idi, yəni özünütəsdiq amili idi.

İndiyə qədər onlar təxminən 5-6 dəfə küsüşüb barışmışdılar. Son dəfə olan ayrılıq sonuncu oldu. Barışıq olmadı. Bunun səbəbi Arslanın yalan danışması idi. Bir gün, münasibətlərinin gözəl olduğu vaxtda Arslan Alisaya yazdı:

-Salam, Alisa. Sənə bir xəbərim var. Atam telefonumu əlimdən alıb. Danışa bilməyəcəyik, görüşə bilməyəcəyik.

Alisa:

-Niyə? Nə etmisən ki?

Arslan:

-Nə etdiyimi deyə bilmərəm.

Alisa:

-Nə vaxta kimi danışa bilməyəcəyik?

Arslan:

-Bilmirəm. Bloka atıram, sağ ol. Özünə yaxşı bax, ömrüm♥♥♥!

Onların söhbətləri bu cür oldu. Bundan sonra Alisa onun yalan danışdığını anladı. İndi o, başqa nömrə ilə yazıb onun yalanını üzünə vurmaq istəyirdi. Alisa qohumu Mertdən xahiş etdi ki, bir bəhanə uydurub Arslana zəng etsin. Onun məqsədi telefona kimin cavab verdiyini öyrənmək idi. Telefona Arslan cavab verdi. Sonra Alisa başqa bir nömrədən Turan Məmmədli adı ilə Arslana yazdı. Onların mesajları bu cür oldu:

Turan Məmmədli-Alisa:

-Salam, mənəm, necəsən? Tanıdın?

Arslan:

-Salam, yaxşıyam, sağ ol, sən necəsən? Yox tanımadım.

Turan Məmmədli-Alisa:

-Sağ ol, yaxşıyam. Telefon səndədir? Arslandır yazan?

Arslan:

-Hə, Arslandır. Məndədir telefon.

Turan Məmmədli-Alisa:

-Bəs, telefonu atan almışdı? Bəs, atan-da idi telefon?

Arslan:

-Bir saat olar götürmüşəm telefonu. Kimdir yazan?

Turan Məmmədli-Alisa:

-Hə, hə, 100 faiz bir saat olar götürmü-sən! Mən Alisayam.

Arslan:

-Alisa???

Alisa:

-Bəli, Alisa!

Arslan:

-İstər inan, istər inanma! Telefonu bir saat olar götürmüşəm.

Alisa:

-Hə, hə, bilirəm. Sağ ol!

Arslan:

-Sağ ol.

Bəli, onların söhbəti elə bununla da bitdi. Bir də açılmadı. Açılmaq şansı da yox idi, məncə.

Alisa fikirləşirdi: "İndi bəlkə də onun həyatında başqası var. İndi bəlkə də məni tam unudub". Beynində dolaşan bu fikirlər onu üzürdü. O bu fikirlərdən azad olmaq istəyirdi. Ancaq bacara bilmirdi. Alisa gününü Allaha dualar etməklə keçirirdi. Amma xeyri olmurdu. Alisa düşünürdü ki, onun həyatında başqası var. Bu ay-

rılıqda günah Arslanda idi. Ancaq Alisa barışmaq istəyirdi.

Həyata olan həvəsi tamam ölmüşdü. Yalnız ürəyinin dərinliyində bir ümid qığılcımı qalmışdı. Hətta bir-birlərini bloka atmaları da Alisanın ümidini tam qıra bilməmişdi. O barışmaq üçün bir himə bənd idi.

## BİR MÜDDƏT KEÇDİ

Gecə yarısı idi. Şəhərin köhnə daş küçələri səssizliklə nəfəs alırdı. Ay buludların arxasında gizlənib, köhnə evlərin pəncərələrinə soyuq ışıq salırdı. Alisa addımlarını sürətləndirib evinin qapısını açdı, ancaq pəncərədən gələn zəif ışıq ona tanış deyildi. Masanın üstündə bir zərf var idi. Üzərində tanımadığı bir imza…və zərfin içindən çıxan kiçik tıkanlı metal parçası..,

sanki düz ürəyə saplamaq üçün hazırlanmış soyuq silah...

Alisa dərindən nəfəs aldı. Bilirdi ki, bu zərf əvvəlki səhifələrdə gizlənən sualları oyadacaq. Amma istəmirdi ki, hər şey eyni qalsın. Bu metal parça nədir? Kim göndərmişdi onu? Və ən əsası Alisa nəyə hazır idi ki, bu sirrin ardınca getsin?

Alisa əlləri əsə-əsə metal parçasını işığın altına tutdu. O, adi dəmir deyildi. Üzərində qəribə işarələr vardı. Amma Alisa bu işarələrin nə demək olduğunu anlamadı. Sonra qəfildən xatırladı ki, bu işarələr çox illər əvvəl gördüyü yuxuları ifadə edir.

Birdən pəncərə taqqıldadı. Külək taqqıltısına oxşamırdı, elə bil kimsə pəncərəyə kiçik daş atmışdı. Alisa qorxu içində pəncərəyə yaxınlaşdı. Küçədə qara paltarlı bir kölgə dayanmışdı. Kölgə onu görüb

yavaşca əlini qaldırdı. Elə bil Alisanı çağırırdı. Alisa donmuş vəziyyətdə qaldı. Çox qorxdu. Amma bilirdi ki, bu sirri açmaq üçün kölgənin ardınca getməlidir…

Alisa pəncərədən kənara baxarkən qara kölgə küçənin qaranlığında əriyib yox oldu. Amma ürəyində qəribə bir titrəyiş vardı. Sanki bir sirr onu çağırırdı. O, metal parçasını əlində sıxıb öz-özünə pıçıldadı: “Bu nədir belə?”

Ertəsi gün universitetdə auditoriyaya daxil olan kimi gözləri qarşısında qəribə bir mənzərə açıldı. Masada qara bir zərf vardı, içinə yenə o tıkanlı metal parça qoyulmuşdu. Bu dəfə üstündə bir mesaj var idi. Mesaj belə idi: “Sən hazır olana qədər heç nəyi açma, amma hər şey gözləmədiyin anda ola bilər, bəlkə də daha tez”.

Alisa ürəyində qərar verdi ki, bu sirri mütləq açmalıdır. Evə qayıdanda ən yaxın

dostu Elvinlə görüşdü. Elvin çox qəribə davranırdı. Elə bil Alisadan nəsə gizlədirdi. Alisa bunu diqqətə almadan metal parçanı onun önünə qoydu. Elvin şok oldu, əlləri titrədi və sanki uzun müddət gizlədilən bir şeyi etiraf etməyə hazırlaşırdı. "O… bu, mənim ailəmdən qalmış bir əşyadır"- deyə, Elvin titrək səslə bildirdi. Amma sən bilməlisən ki, bunu açmaq həm ürəksıxıcı, həm də bir az təhlükəlidir. Bunda bir sirr var. İndi o sirr səni tapacaq. Alisa qorxu və həyəcan hisslərinin arasın- ilişib qaldı. Metal parçanın üzərindəki işarələr onun hafizəsini canlandırırdı. Bu işarələr bir xəritənin parçası idi. Bu fakt onu həm də çaşdırırdı. Xəritə keçmişdə olan bir insanla bağlı idi.

Günlər keçdi, Alisa və Elvin ipuclarını bir-bir topladılar. Onlar köhnə kitabxanaların, tərk edilmiş evlərin, hətta yeraltı tu-

nellərin belə izlərini araşdırdılar. Bu onlar üçün sanki bir sınaq idi. Amma başqa növ sınaq. Hər tapılan ipucu onları xəritədə göstərilən yerə bir az da yaxınlaşdırırdı. Yaxınlaşdıqca da Alisanın qorxusu artırdı. O anlayırdı ki, bu sirrin açılması onu həm böyüdür, həm də qorxularına qalib gəlməyə təhrik edir. Və nəhayət, bir gecə ay işığı altında onlar sirrin ən gizli nöqtəsinə gəldilər. Alisa gördü ki, sirrin mərkəzində yalnız xəzinə deyil, həm də keçmiş ilə gələcəyi birləşdirən bir seçim durur. Bir tərəfdə sirri açmaq və böyük gücü kəşf etmək, digər tərəfdə isə dostluğu və sevgini qorumaq vardı.

Alisa dərindən nəfəs aldı, ürəyi döyünürdü. Bilirdi ki, bu seçim onu dəyişdirəcək. Amma hansı yolun onu ən güclü edəcəyinə yalnız o özü qərar verəcəkdi. Onlar

bir gün kitabxanada izləri araşdırarkən bir butulka tapdılar.

Butulkanın içində məktub var idi. Görünür məktub çoxdan yazılmışdı. Çünki, kağız saralmışdı və qıraq-bucağı cırıq-cırıq idi. Mətn çətin oxunurdu. Alisa və Elvin bunu oxumağa çalışdılar. Kağızda ingilis dilində yazılmışdı: “ The Geteway of Shadows and Love” (“Kölgələrin və sevginin qaçışı”).

Alisa və Elvin birlikdə bu cümləni tərcümə etdilər. Cümlə onları düşündürdü. Çox fikirləşmədən məktubu götürüb, yollarına davam etdilər. Bir az getdikdən sonra qarşılarına bir qapı çıxdı. Onlar qapını açıb içəri daxil olmaq qərarına gəldilər. Birlikdə içəri girdilər. Bura qaranlıq, qorxulu, hürküdücü bir yer idi. Sanki insan ayağı dəyməmişdi. İçəri girəndən sonra qapı qəfil bağlandı. Geri qayıtmağa yol

yox idi. Qapını nə qədər döyəclədilər, dartışdırdılar açılmadı. Qorxudan Alisanın əlləri əsməyə başladı. Elvin ona dəstək olmağa çalışdı. Onlar əldən düşənə qədər çalışdılar, amma heç nə edə bilmədilər. Sonra qapıya söykənib oturdular. İçəri çox qaranlıq idi. Göz gözü görmürdü. Bir-birlərinə ürək-dirək verməyə başladılar.

Bu vaxt içəridən bir səs gəldi: “Bu qapıdan içəri niyə girdiniz?”.

Qəfil səsdən ikisi də qorxub qışqırdılar. Səsin qəribə ahəngi ikisini də möhkəm qorxutmuşdu. Nəhayət, Elvin toparlanıb dedi:

-Biz bir sirri araşdırırıq. Bu qapı da önümüzə çıxdı. Ona görə girdik. Buradan çıxa biləcəyik?

Səs dedi:

-Bəli, çıxacaqsınız, amma öncə bir şərtim var. Bir az qabağa gedəndən sonra bir

çeşmə görəcəksiniz. O çeşmənin suyundan içməlisiniz. Yoxsa çıxa bilməyəcəksiniz.

Onlar bir az gedəndən sonra çeşməni gördülər. Dərhal içməyə qorxdular. Çeşmənin ətrafı yosunlarla dolu, suyunun rəngi yaşıl rəngdə idi, qoxusu isə kiflənmiş çörək iyinə oxşayırdı. Alisa əyilib sudan içmək istəyəndə Elvin qoymadı. O bilirdi ki, suda qəribəlik var. Ona görə öncə əyilib özü içdi. Suyun qoxusunun pis olmağına baxmayaraq dadı gözəl idi. Amma yenə də Alisanın içməsinə icazə vermədi. Onlar burada olan işlərini bitirib, qapıya doğru getdilər. Qapı öz-özünə açıldı. Elvin qapıdan çıxdı. Ancaq Alisa çıxmaq istəyəndə qapı örtüldü və içəridən bir səs gəldi: "Sən də sudan içməlisən".

Alisa qayıdıb sudan içdi və təkrar qapıya yaxınlaşanda qapı açıldı. O, bayıra

çıxdı, ancaq Elvini orada görmədi. Bərk qorxdu. Nə edəcəyini bilmədi. İrəli gedərək “Elvin” deyə çağırmağa başladı. Amma səs-səmir yox idi. Alisa özünü toxdadıb Elvini axtarmağa davam etdi. O, bir az getmişdi ki, yerdə muncuqlar gördü. Elə bil bunları kimsə qəsdən yerə atmışdı. Alisa muncuq izlərini təqib etdi. O, fərqinə varmadan gedib bir meşəyə çıxdı. Başını qaldıranda meşədə olduğunun fərqinə vardı. Yerdə bir quyu gördü. Təsadüfi bədbəxt hadisədən qaçmaq üçün quyunun ağzını örtdü. Nəfəsini dərmək üçün bir ağaca söykəndi. Elvini tapa bilmədiyi üçün onu dəli bir ağlamaq tutdu.

Birdən Elvin hardansa peyda oldu. Onlar bir-birlərinə sarıldılar. Yenidən tapışdıqları üçün çox sevinirdilər. Artiq onlar yenidən ayrılmaq ehtimalından çox qorxurdular. Buna görə də əl-ələ tutub

barmaqlarını möhkəm sıxmışdılar. Fikirləşdilər ki, birdən qarşılarına vəhşi heyvan çıxar, buna görə də bir ağaca dırmaşıb gecəni orada keçirdilər.

Yorğunluq və aclıq onları taqətdən salmışdı. Səhər açılanda gördülər ki, üstünə çıxdıqları meyvə ağaçıdır. Meyvədən yedilər, bir qədər də yığıb özləri ilə götürdülər. Sonra yola düşdülər. Məqsədləri meşədən çıxıb, xəritənin sirrini tapmaq idi. Yolda bir lövhə gördülər. Lövhədə belə yazılmışdı: "Meşədən çıxmaq üçün bu yoldan istifadə edə bilərsiniz".

Yolu tapdıqlarına görə kefləri kökəldi. İnamla irəli getdilər. Qəfil qarşılarına bir it çıxdı. Alisa elə bildi ki, it onlara hücum edəcək. Amma it onlara hücum etmədi. Əksinə, diqqətlə cütlüyə baxıb, sakitcə sağ tərəfə getdi, sanki onlara istiqaməti göstərmək istəyirdi. Alisa və Elvin itin

ardınca getdilər. Və nəhayət meşədən çıxdılar. Artıq it də onlarla birlikdə axtarışda idi. Az sonra bir qıza rast gəldilər. Qız meşədə azmışdı. Qızın 10-11 yaşı olardı. Onunla söhbətdən məlum oldu ki, evləri haradasa bu tərəflərdədir. Anası ilə meşəyə meyvə yığmağa çıxıbmış. Amma anasını itirmişdi. O, anasını səsləyərək bərkdən ağlayırdı. Alisa və Elvin qızın bu halını görüb ona anasını tapmaqda kömək etmək qərarına gəldilər. Qızdan evlərinin yerini bilib-bilmədiyini soruşdular.

Şansdan qız evin yerini bilirdi. Ancaq getməyə qorxurdu. Düşünürdü ki, qabağına vəhşi heyvan çıxar. Onlar qızı da götürüb evə yollandılar. Qızın evi olduqları yerdən təxminən 9-10 km aralı idi. Piyada bu məsafəni qət etmək çox yorucu idi. Ancaq ayrı əlac yox idi. Axşam qaranlıq düşəndə onlar nəhayət, evə çatdılar. Qapı-

nı döydülər. Gələnləri qarşılayan ananın gözləri yaşlı idi. Qızını itirdiyinə görə dərd çəkirdi. Balasını görcək onu bərk-bərk qucaqladı. Sonra gənclərə təşəkkürünü bildirib, onları evə dəvət etdi. Qadın mətbəxə keçib Alisa və Elvinə yemək, çay hazırladı və onlardan meşəyə nə səbəbə getdiklərini soruşdu.

Alisa dedi:

-Biz bir məkan axtarışındayıq. Əlimizdə xəritə var. O xəritədə göstərilən yolu gedirik. Bir sirri açmalıyıq.

Bunu eşidəndə ana təəccübləndi və dedi:

-Xəritəni görmək olar?

Elvin:

-Bəli.

Elvin cibindən xəritəni çıxartdı və anaya göstərdi. Ana xəritədə cızılan yola ba-

xanda gözlərinə inanmadı və dərhal daha böyük təəccüblə dedi:

- Bu ki malikanənin yoludur. Orda nə sirr ola bilər ki?

Elvin:

- Bilinmir, biz də bunu axtarırıq. Siz hardan tanıyırsız bu yolu?

Ana:

- Bu malikanəni mən tanıyıram. Sizə yolunu tam dəqiq göstərə bilərəm.

Alisa:

- Bəli, yaxşı olar, çox sağ olun.

Onlar birlikdə həmin yerə getdilər. Malikanəyə çatanda ana uşaqlarla sağollaşıb geri qayıtdı. Malikanənin böyük bir qapısı var idi. Qapının üzərində aslan, bəbir və daha bir neçə vəhşi heyvanın heykəlləri var idi. Onlar artıq sirrin tam açılmağına yaxınlaşmışdılar.

Həyəcanlı idilər. Buna baxmayaraq hər ikisi cəsarətli idi. Onlar qapını açıb içəri girdilər. Qarşılarına ikiyə ayrılan yol çıxdı. Bir yol işıqlı, gül-çiçəklə dolu idi. Digər yol isə zülmət idi, həndəvərindən it, vəhşi heyvan səsləri gəlirdi.

Onlar qərarsız qaldılar. Bilmədilər ki, hansı tərəfə getsinlər. Axırda getməyin lazım olduğunu deyib işıqlı, gül-çiçəkli olan tərəfə getdilər. Bu tərəf elə bil cənnət idi. Hər tərəfdə müxtəlif növ çiçəklər, növbənöv kəpənəklər var idi. Bir sözlə, möhtəşəm idi. Bu mənzərəyə heyran qalmışdılar. Bu yolda onların qarşısına böyük bir daş çıxdı. Daşın üstündə oturub dinclərini almaq istədilər. Onlar daşın üstündə oturub dincəlirdilər ki, bu zaman elə bil daş yerindən oynadı. Bu hadisənin nə isə bir əlamət olduğundan şübhələndilər. Sonra daşı qaldırıb altına baxdılar. Orada bir ka-

ğız vardı. Kağızın üstü toz-torpaq idi. Sadəcə kiçik bir hissəsi görünürdü. Elvin kağızı götürüb, üstünü təmizlədi və açıb oxudu. Kağızda belə yazılmışdı: "Burda axtardığınız sirri tapa bilməyəcəksiniz. Digər yolla getməlisiniz".

Alisa və Elvin kağızı oxuduqdan sonra yolayrıcına qayıtdılar. Zülmət yolla getdilər. Bu yol çox qorxulu idi. Onlar yolboyu qorxunc heyvan skeletlərinə, çoxlu böcəklərə, yarasalara, insan skeletlərinə rast gəlirdilər. Üstəlik, ətrafda qəribə səslər eşidilirdi və hər tərəf qaranlıq olduğundan heç nə görmək olmurdu.

Bir qədər gedəndən sonra qarşılarına bir qaranquş çıxdı. Qaranquşun ağzında bir kağız var idi. Bu kağızda nə yazıldığı uşaqlara maraqlı gəldi. Alisa əlində olan bir parça çörəyi quş üçün didib yerə tökdü. Quş çörək qırıntılarını gördü və ye-

mək üçün aşağı endi, çörək qırıntılarını yeyəndə kağız ağzından düşdü. Alisa kağızı götürüb oxudu. Kağızda belə yazılmışdı: “Sirri tapmaq üçün 200 metr qabağa getməlisiniz”.

Alisa və Elvin 200 metr qabağa getdilər. Onlar çox yorğun və aç idilər. Əllərində olan çörəyi də quşa vermişdilər. İçməyə suları belə yox idi. Elə bu vaxt Elvin yol kənarında bir bulaq gördü. Əyilib su içmək istəyəndə bulaqdan səs gəldi: “Tez sirrə doğru qaçın, 20 dəqiqəniz var”.

Tələm-tələsik sudan içib, yollarına davam etdilər. 200 metr irəlilədikdən sonra qarşılarına balaca bir daxma çıxdı. Daxmanın qapısı üzərində ingilis dilində yazılmışdı: “Secret door”, “Room of secrets”, “Scandalous secrets”. (“Sirlər qapısı”, “Sirli otaq”, “Qalmaqallı sirlər”) Alisa bunları tərcümə etdi və onlar içəri girdilər.

Qapının ağzında bir stol, stolun üstündə isə beş kiçik qutu var idi. Və bir ədəd də açar.

Burdakı açar bu beş qutudan birinin açarı idi. Qutunu açmaq üçün yalnız bir dəfə şans verilirdi. Yəni, qutunun açarını ilk cəhddə mütləq tapmaq lazım idi.

Uşaqlar bu açarın hansı qutunun olduğunu tapa bilməsələr bütün əziyyətləri boşa gedəcəkdi. Onlar çox həyəcanlı idilər. Qorxurdular ki, səhv etsinlər. Onda sirri tapa bilməyəcəkdilər. Bu mərhələdən keçsələr onları hələ qabaqda dörd mərhələ gözləyirdi. Elvin Alisaya dedi:

-Sən seç birini.

Alisa:

-Bəs, düz çıxmasa?

Elvin:

-Canın sağ olsun, seç.

Alisa qorxa-qorxa açarın birini götürüb qutulardan birinə saldı. Qutu açıldı. Açarı

düz tapdıqlarına görə onlar çox sevindilər. Sonra yollarına davam etdilər.

Onları ikinci mərhələ gözləyirdi. Bu mərhələdə bir qapının şifrəsini açmalı idilər. Onlarin yalnız 3 şansı var idi. Birinci və ikinci cəhdlərində aça bilmədilər. Yalnız üçüncü şansları qalmışdı. İndi onlar fikirləşirdilər ki, bu şifrə nə ola bilər? Alisa diqqətlə otlara baxanda otların rəqəmlərə bənzədiyini gördü. Onlar birləşib 1225 ədədinin şəklini almışdı. Alisa bunu tez Elvinə dedi. Bu onların son şansları idi. Elvin bu şifrəni yığdı. Qapı açıldı. Onlar yenə də çox sevindilər.

Sonra yollarına davam etdilər. Bir müddət gedəndən sonra qarşılarına bir yarğan çıxdı. Yarğan çox uzun idi. Onlar yarğanın üstündən keçməli idilər. Amma bu təhlükəli idi. Elvin yarğandan asanlıqla keçdi. İndi əsas məsələ Alisanın keçməyi idi. Çünki Alisa çoz qorxurdu. Elvin ona

yarğandan keçməsi üçün kömək etdi.

Alisa da yarğandan keçdi, amma o keçəndə yarğanın içindən qəfil ilan çıxdı. Əgər Alisa bir az da ləngisəydi ilan onu sanca bilərdi. Bəxtlərindən hər şey yaxşı oldu, təhlükə sovuşdu. Onlar dördüncü mərhələyə keçdilər. Bu mərhələdə onlara bir tapmaca verildi. Tapmacada deyilirdi: "Qəhrəmanlar qədim bir malıkanədə gizli bir otağı açmaq istəyirlər. Otağa gedən yolda 5 qapı var və hər qapının arxasında bir sirli əşya gizlənib: qırmızı, mavi, yaşıl, sarı, qara. Amma qapılar yalnız düzgün sıra ilə açılarsa, sirr ortaya çıxacaq".

Qapının üzərində belə ipucları yazılmışdı:

1. Qara qapı sarıdan əvvəl açılmalıdır, amma yaşıl qapıdan sonra deyil.
2. Mavi qapı üçüncü deyil.

3. Yaşıl qapı qırmızıdan sonra gəlməli, amma sarıdan əvvəl açılmalıdır.

4. Sarı qapı heç vaxt birinci ola bilməz.

5. Qırmızı qapı mavi ilə yaşıl arasında yerləşir.

Sual isə belə idi: - Qapı hansı sıra ilə açılmalıdır?

Sual məntiqli olduğu qədər də maraqlı və qəliz idi. Alisa və Elvin birlikdə bu tapmacanı tapmağa çalışdılar. Son mərhələ idi və bundan o yana yol yox idi, cavab mütləq tapılmalıydı. Onlar çox fikirləşdikdən sonra bunu addımlarla həll etdilər:

Qırmızı(Q)

Mavi (M)

Yaşıl (Y)

Sarı (S)

Qara (Qk)

1. S birinci ola bilməz - S ⛔ 1.

2. Y, Q - dan sonra, S - dən əvvəl, - Q < Y < S

3. Qk S- dən əvvəl, Y- dan sonra deyil- Qk 1-ci.

4. M üçüncü ola bilməz - M 2-ci.

5. Q, M və Y arasında - Q 3-cü.

Cavab: Qara-Mavi-Qırmızı-Yaşıl-Sarı.

Onlar cavabı bu cür tapdılar və qeyd etdilər. Cavab düz idi. Alisa və Elvin bütün mərhələlərdən keçdilər. Sirrin açılması zamanı gəldi və onların bu sirdən agah olmaları an məsələsi idi. Bu vaxt qapı açıldı. Qapının ağzında kiçik kağız parçaları var idi.

Eyni vaxtda qeybdən bir səs eşitdilər: “Bu kağız parçalarını birləşdirin və sirri öyrənin!” Onlar çətinliklə olsa da kağızı birləşdirməyi bacardılar. Nəhayət, sirr ortaya çıxdı. Kağızda belə yazılmışdı: “Bu qapını açanda bir xəzinə tapacaqsınız.

Xəzinənin hamısı sizindir. Amma təkcə xəzinə deyil, keçmiş bir sirr də".

Onlar qapını açdılar. Həqiqətən içərisi dolu xəzinə, qızıl-gümüş idi. Qapının ağzında şüşə butulka var idi. İçində də kağız. Onlar həyəcanlı idilər. Butulkanın qapağını aça bilmədikləri üçün Elvin butulkanı divara vurub sındırdı. Gözlənilən an gəldi. Kağızda belə yazılmışdı: "Sən bir pərisən və buna görə də heç vaxt ölməyəcəksən. Vaxtilə sənin nəslindəki bəzi insanların açdığı qapının sahibi Arslandır. Ən əsas sirr: sən bir malikanənin sahibisən. Bu malikanə çox gözəldir və pərilər aləmidir".

Bəli, sirlər bunlar idi. Artıq Alisa pərilər aləminin baş pərisi olmuşdu. İndi sizə qaranlıq qala bilər ki, bəs, bu qızın tapdığı, üstündə işarələr olan soyuq silah nə idi? Alisanın atası bir müddət sonra soyuq

silahla qəfildən öldürüləcəkdi. Amma bunu Alisaya demədilər, həmin an sevincdən Alisanın gözləri elə gülürdü ki, onun o gülüşünə heç kəs qıya bilməzdi. Bunun üçün demədilər. Amma Elvin bilirdi. Beləliklə, onlar sirrin bir qismini öyrənib evə qayıtdılar.

*Müəllifdən:*

“Bu əsəri yazarkən məqsədim yalnız bir sirr açmaq deyildi. İstədim ki, oxucu da qəhrəmanlarla birgə düşünsün, həyəcanlansın və sonda qismən də olsa xoşbəxtliyi tapsın. Çünki, həyatın ən böyük sirri də elə budur - yaxşılıq, dostluq və xoşbəxtlik.

Əsərin əvvəlində hadisələr sevgi üzrə canlanır. Bununla oxuculara çatdırmaq istəyirəm ki, heç kimə asanlıqla güvənmək lazım deyil. Hər kəs sizi yarı yolda qoya bilər. Ona görə də hər “sevirəm” deyənə inanmaq sadəlövhlükdür. Həyatda addımlarınızı atarkən diqqətli olmağınızı təklif edirəm. Sizə həyat yolunuzda uğurlar arzulayıram!”

# Qeyd

Mətbəənin direktoru: Elman Qasımov
Dizayner: Azər Aydın

Çapa imzalanmışdır: 14.10.2025.
Formatı: 60x84 1/32.
Çap üsulu: Ofset çapı
Həcmi 3.25 ç.v. Sifariş № 81. Tiraj 100
«Zərdabi Nəşr» MMC Nəşriyyat
Poliqrafiya müəssisəsi
Tel: (012) 514-73-73, mob. (050; 070) 344 76 01
e-poçt: zerdabi_em@mail.ru